

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 iyun 2026-cı il №39 (3041) https://mod.gov.az Qiymәti 30 qəpik

## Qalib ordumuz beynəlxalq təlimlərdə gücünü daha da artırır



Son illərdə dünyada baş verən münaqişələr, qanlı toqquşmalar bir daha təsdiq edir ki, döyüş hazırlığı yüksək olan şəxsi heyətə, müasir texnoloji yeniliklərə malik ordu yaratmaq strateji zərurət və dövlətin varlığını təmin edən mahiyyətdir. Müstəqilliyinə sevinə bilmədən elan edilməmiş müharibəyə cəlb olunan ölkəmiz üçün sadalananlar hər zaman dövlət rəhbərliyi tərəfindən seçilmiş mühüm fəaliyyət istiqamətlərindən olub. Müstəqil Azərbaycanın dövlətçilik tarixində hərb sahəsi hər zaman qarşıya qoyulmuş prioritetlərdən biri olmaqla yanaşı, hərbi ənənələrimizin davamı olaraq bu gün də yaşayır və uğurla davam etdirilir. Görülən işlərin məntiqi nəticəsidir ki, XXI əsrin ədalət savaşını Böyük Qələbə ilə taclandıran ordumuzun dövrün tələblərinə uyğun təkmilləşdirilməsi istiqamətində fasiləsiz işlər görülür. Nəticədə, ölkənin varlığının qarantı, onun vuran əli və qoruyan qalxanı olan ordusu suverenliyin və milli maraqların da qorunması üçün hər zaman dövlətinin və xalqının etimadını layiqincə doğruldur.

Azərbaycan Ordusunun döyüşaparma və özünümüdafiə qabiliyyətinin artırılması məqsədilə görülən fəaliyyətlər bu gün də özünün dinamik inkişaf mərhələsindədir. 2026-cı ilin ilk yarımilində Azərbaycan Ordusu döyüş hazırlığı istiqamətində fəaliyyətini daha da genişləndirdi. Il ərzində NATO ilə əməkdaşlıq çərçivəsində keçirilən kurslar, Türkiyə və digər aparıcı ordulara sahib ölkələrin ev sahibliyi və iştirakı ilə təşkil olunan təlimlər, həmçinin müxtəlif taktiki və əməliyyat ssenarilərini əhatə edən toplanışlar və müxtəlif hazırlıq fəaliyyətləri ordunun peşəkarlığının artırılmasına müsbət təsir göstərib. Keçirilən fəaliyyətlər şəxsi heyətin müasir dövrün döyüş və ya müdafiə şəraitində nəzəri bilik, praktiki bacarıqları, koordinasiya imkanlarını və qarşılıqlı uzlaşma səviyyəsini yüksəltmək məqsədi daşıyıb. Bu məqalədə cari ilin ilk yarısında şanlı Azərbaycan Ordusunun şəxsi heyətinin iştirakı ilə keçirilən müxtəlifmiqyaslı və təyinatlı kurslar, təlim və ümumi döyüş hazırlığı fəaliyyətlərindən danışacağıq.

### NATO ilə əməkdaşlıq çərçivəsində görülən fəaliyyətlər

2026-cı ilin əvvəlindən etibarən Azərbaycan ilə NATO arasında "Sülh Naminə Tərəfdaşlıq" Proqramı çərçivəsində əməkdaşlıq uğurla davam etdirildi. Bu müddətdə Bakıda NATO-nun müvafiq qərargahlarından olan mobil təlim qrupları tərəfindən "Rabitə, informasiya texnologiyaları və kibertəhlükəsizlik", eləcə də "NATO-da logistikanın planlaşdırılması" mövzularında kurslar keçirildi. Kursların əsas məqsədi Azərbaycan Ordusunun hərbi qulluqçularının öz ixtisas bilik və bacarıqlarının artırılması, NATO standart və prosedurlarının tədris edilməsi idi.

Bundan başqa, cari ilin fevralında Bakıda "Tərəfdaş ölkələrin qabiliyyət uyarlılığı təşəbbüsü-2026" təlim kursu təşkil edildi. Kurs çərçivəsində qarşılıqlı fəaliyyət və uyarlılıq səviyyəsinin yüksəldilməsi, təcrübə mübadiləsinin genişləndirilməsi istiqamətində müzakirələr aparıldı. Həmçinin Müdafiə Nazirliyinin rəhbər heyəti NATO-nun mobil təlim qrupunun nümayəndələri ilə görüş keçirərək əməkdaşlıq məsələlərini müzakirə etdi, sürətlə dəyişən təhlükəsizlik mühitində qarşılıqlı uzlaşma və əməkdaşlığın vacibliyi diqqətə çatdırıldı.

(Ardı 3-cü səhifədə)

## Ötən həftə 149 mina və 412 partlamamış digər hərbi sursat zərərsizləşdirilib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən iyunun 1-7-də icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 48, tank əleyhinə 101 mina və 412 partlamamış digər hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib, 1545,7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## 15 İyun - Qurtuluşdan Zəfərə

*Tarixdə elə dönüş nöqtələri var ki, onlar millətlərin gələcək taleyini və inkişaf yolunu müəyyən edir. Bizim keçmişimizdə də belə müstəsna yerə malik olan 15 iyun 1993-cü il tarixi xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk olunmuşdur və hər birimiz bu günü dərin hörmətlə anırıq. Bu tarix sadəcə təqvim günü deyil, çox böyük siyasi və tarixi çəkiyə malik bir hadisədir. Öz ölkəsinə bağlı olanlar, həmin dövrün ağır sınaqlarından, xaosundan və çətinliklərindən keçmiş canlı şahidlər üçün 15 iyun tarixi Azərbaycan dövlətinin varolma və xilas mübarizəsinin rəmzidir.*

Azərbaycan öz dövlət müstəqilliyini 18 oktyabr 1991-ci ildə yenidən bərpa etdi. XX əsrin əvvəlindəki acı təcrübədən fərqli olaraq, bu dəfə qazanılan azadlığın daimi və sarsılmaz olması ən böyük hədəf idi. Azərbaycan müstəqilliyinin ilk illərində daxili xaos, qeyri-nizami ordu sistemi, Ermənistanın hərbi təcavüzü və kəskin hakimiyyət boşluğu ilə üz-üzə qalmışdı. İctimai-siyasi gərginliyin artması və sosial vəziyyətin pisləşməsi ölkəni parçalanmaqdan qoruyacaq qətiyyətli bir liderin gəlişini qaçılmaz edirdi. Cəmiyyətin bütün təbəqələri bu xilaskar missiyanı yalnız Əbədiyaşar Komandan Heydər Əliyevin yerinə yetirə biləcəyinə inanırdı.

Xalqın təkidli tələbi ilə Bakıya qayıdan Dahi Rəhbər Heydər Əliyev 1993-cü il iyunun 15-də Ali Sovetin sədri seçildi.

(Ardı 2-ci səhifədə)

## Hərbi İdarəetmə İnstitutunda ixtisasartırma kursunun buraxılış mərasimi keçirilib





*Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunda "Briqadanın maddi-texniki təminatının idarə edilməsi üzrə ixtisasartırma kursu"nun ikinci buraxılış mərasimi keçirilib.*

Milli Müdafiə Universiteti xəbər verir ki, mərasimi giriş sözü ilə açan Hərbi İdarəetmə İnstitutu rektorunun Tədris və elmi işlər üzrə müavini - tədris şöbəsinin rəisi 1-ci dərəcəli kapitan Əsəd Rüstəmov kursu bitirən zabitlərə Milli Müdafiə Universitetinin rəhbərliyinin təbrikini çatdırıb, onlara gələcək fəaliyyətində uğurlar arzulayıb. O, Azərbaycan Ordusunda peşəkar və dövrün tələblərinə uyğun zabit kadrlarının hazırlanmasının Ali Baş Komandanın ordu rəhbərliyi qarşısında qoyduğu prioritet məsələlərdən biri olduğunu vurğulayaraq, hərbi təhsil sistemində aparılan islahatların ordumuzun döyüş qabiliyyətinin və intellektual potensialının yüksəldilməsi məqsədini daşıdığını xüsusi diqqətə çatdırıb.

Kursu birinciliklə bitirən mayor Xalid Əliyev kurs yoldaşları adından çıxış edərək tədris dövründə əldə etdikləri bilik və bacarıqlara yiyələnmələri üçün yaradılmış şəraitə görə Milli Müdafiə Universitetinin və Hərbi İdarəetmə İnstitutunun rəhbərliyinə, professor-müəllim heyətinə minnətdarlığını bildirib.

Sonda məzunlara sertifikatlar təqdim olunub və xatirə fotoları çəkilib.

(Əvvəli 1-ci səhifədə)

# 15 İyun - Qurtuluşdan Zəfərə

Bu hadisə ölkədəki vətəndaş müharibəsi təhlükəsinə və daxili çəkişmələrə son qoydu. Ümummilli Lider sonralar bu dövrü qiymətləndirərkən qeyd edirdi ki, Azərbaycan həm məkrli niyyətli daxili qüvvələrin, həm də müstəqilliyimizə göz dikən xarici dairələrin böyük təhdidi altında idi və 1992-ci ildə hakimiyyətə gələnlər bu çətinliklərə dözməyərək, bir il sonra xalqın iradəsi ilə idarəçilikdən uzaqlaşdırıldı.

Sözügedən dövrdə gənc müstəqil respublikamız həm xarici təcavüz, həm də daxili idarəolunmazlıq səbəbindən parçalanmaq və vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalmışdı. Cəbhədə vahid komandanlığın olmaması, hərbi hissələrin siyasi ambisiyalara alət edilməsi torpaqlarımızın itirilməsi ilə nəticələndi. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev, ilk növbədə, dövlətin onurğa sütunu olan ordunu yenidən qurmağa başladı.

Məhz Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti, idarəçilik məharəti və azərbaycançılıq ideologiyası sayəsində ölkədə sabitlik bərqərar oldu, dövlət demokratik və hüquqi inkişaf yoluna qədəm qoydu. O, beynəlxalq normalara əsaslanan dövlət quruculuğu prosesinə start verdi. Bu istiqamətdə atılan ən mühüm addımlardan biri nizami ordunun yaradılması və torpaqlarımızın müdafiəsinin təşkili oldu. Güclü diplomatik səylər nəticəsində isə 1994-cü ilin mayında ölkə üçün həyati əhəmiyyət kəsb edən atəşkəs rejimi əldə edildi.

Ordu quruculuğunun düzgün təşkili üçün başlıca şərtlərdən biri ordunun döyüş əzmini, qələbə ruhunu yüksəltmək idi ki, məhz Dahi Lider Heydər Əliyev həmin vaxtlarda bu faktorun vacibliyini dərindən anlayırdı. Belə bir yüksəlişi müharibə mühitində ancaq uğurlu hərbi əməliyyat təmin edə bilərdi. Belə də oldu. 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə Azərbaycan Ordusu tərəfindən Horadiz əməliyyatı həyata keçirildi. Bu əməliyyat Azərbaycan Ordusunun gücünün, qüdrətinin təsdiqi oldu, eyni zamanda, Azərbaycan əsgərinin qalibiyyət, zəfər əsgəri olduğunu təsdiqlədi. Əməliyyat nəticəsində işğaldan azad edilən kəndlər arasında Füzuli rayonunun 20 Arazboyu kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi var idi. Bu qələbə ordumuzun döyüş əzmini, qələbə ruhunu ifadə edən qələbə kimi tarixə düşdü, şəxsi heyətin mənəvi-psixoloji hazırlığında əvəzsiz əhəmiyyətə malik oldu.

Ordu quruculuğunun elmi əsaslarla aparılmasında hərbi-elmi biliklərin də rolu danılmazdır. Ali hərbi təhsilli komandir və qərargah zabitlərinin hazırlığının təkmilləşdirilməsi, hərbi sahədə elmi-tədqiqat fəaliyyətinin təşkili və inkişafı, hərbi-elmi kadrların yetişdirilməsi, eləcə də dövlət qurumlarında çalışan yüksək vəzifəli şəxslərə ölkənin müdafiəsi ilə bağlı hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsinin vahid mərkəzdən həyata keçirilməsi məqsədilə Ulu Öndər Heydər Əliyev 1999-cu ilin 20 fevral tarixində Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması haqqında Fərman imzaladı. İkinci Qarabağ müharibəsi zamanı qazanılmış tarixi Zəfərdən sonra həmin Akademiyanın əsasında Milli Müdafiə Universiteti təsis edildi. Bu gün ölkənin hərbi təhsil sistemində mühüm yer tutan belə bir qurumun formalaşmasının təməlində duran proseslərin başlanğıcı da məzmun etibarilə Qurtuluş Gününün yaratdığı siyasi sabitlik və inkişaf mühiti ilə əlaqələndirilə bilər.

1999-cu il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr edilmiş təntənəli mərasim baş tutdu. Bu mərasimdəki çıxışında Əbədiyaşar Komandan demişdi: "Biz ölkəmizi iqtisadi cəhətdən inkişaf edən ölkə etmək istəyirik. Biz ölkəmizin vətəndaşlarına firavan həyat yaratmaq istəyirik. Biz müstəqil dövlət kimi daim yaşamaq istəyirik. Bütün bu işlər - təkcə neft sahəsində deyil, Azərbaycan iqtisadiyyatının, həyatının bütün başqa sahələrində də gördüyümüz işlər məhz bu məqsədi daşıyır". Azərbaycanın dünya dövlətləri sırasında bu fikirlərin özünəməxsus yer tutduğunu, həm siyasi, həm də iqtisadi qüdrəti ilə bəşəri dövlətlər üçün əhəmiyyətli tərəfdaş olduğunu xatırladırdı...

Dahi Lider Heydər Əliyev Azərbaycanı sevirdi, Azərbaycan dövlətçiliyinə, Azərbaycan torpağına bağlı idi, Azərbaycan dilini, ədəbiyyatını, mədəniyyətini, incəsənətini sevirdi. O, əsl vətənpərvər idi. "Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır" deyən Ümummilli Liderimiz üçün xalqın, Vətənin taleyi hər insanın taleyi ilə eyniləşdirilirdi. Bu sevginin təzahürü idi ki, azərbaycançılığın dönməzliyi üçün, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi naminə 2001-ci il avqustun 9-da "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərman imzaladı. Ulu Öndər deyirdi: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur".

Xalqın istəyi ilə Milli Məclis 1997-ci il iyunun 27-də qəbul etdiyi qərarla 15 iyun tarixini rəsmi olaraq "Milli Qurtuluş Günü" elan etdi. Həmin qərarda vurğulanırdı ki, Azərbaycanın taleyinin həll olunduğu ən böhranlı məqamda Dahi Şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıtması onun öz xalqını və müstəqilliyini xilas etmək naminə atdığı misilsiz və fədakar bir addım idi.

15 iyun ölkəmizdə Milli Qurtuluş Günü kimi böyük coşqu ilə bayram edilir. Bu tarix Azərbaycan dövlətinin xilasının təməl nöqtəsidir. Zamanında Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi böyük xilaskarlıq missiyası həm xalqımızın, həm də dünya ictimaiyyətinin gözü qarşısında baş verdi. Nəticədə ölkəmiz parçalanmaq və yox olmaq reallığından uzaqlaşaraq qüdrətli bir dövlətə çevrildi. Heydər Əliyevin sarsılmaz iradəsi və gərgin əməyi sayəsində qısa müddətdə görülən nəhəng işlərin miqyası bu gün də insanı heyran qoyur.

Hazırda Azərbaycandakı möhkəm müstəqil dövlətçilik ənənələrinin mövcudluğu birbaşa Ümummilli Liderin fədakar fəaliyyətinin bəhrəsidir. Onun strateji kursunun əsas hədəfi hər bir vətəndaşın rifahını və təhlükəsizliyini tam təmin edə biləcək güclü respublika qurmaq idi. Bu gün Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev həmin siyasi xəttə sadiqlik nümayiş etdirərək ölkəmizi yeni uğurlara doğru inamla aparır. Ulu Öndərin vaxtilə dediyi "Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz" fikri Qurtuluş Gününün əsl fəlsəfəsini və xalqımıza verdiyi gücü ifadə edir. Əminliklə deyə bilərik ki, bu Dahi Şəxsiyyətin ideyaları Azərbaycan var olduqca yaşayacaq və inkişafımıza işıq tutacaq. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi və Vətən sevgisi onu dünya azərbaycanlılarının liderinə və dövlətimizin əbədi memarına çevirmişdir.

Hər bir müstəqil dövlətin varlığı onun daxili sabitliyindən və bu sabitliyi qorumağa qadir olan qüdrətli ordusundan asılıdır. Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində elə dönüş nöqtələri var ki, onlar millətin taleyini tənəzzüldən intibaha, məğlubiyyətdən parlaq qələbələrə doğru dəyişmişdir. Bu tarixlərin zirvəsində dayanan 15 İyun - Milli Qurtuluş Günü müasir, qüdrətli və Rəşadətli Azərbaycan Ordusunun formalaşmasının da ideoloji mərkəzidir. Bu, həm də xaosdan nizami orduya doğru atılan böyük addım idi.

Ulu Öndərin 15 iyunda Ali Sovetin sədri seçilməsi ilə ölkədə hərc-mərcliyə son qoyuldu. Ordunun siyasiləşməsinin qarşısı alındı, pərakəndə dəstələr ləğv edilərək vahid mərkəzdən idarə olunan nizami Azərbaycan Ordusunun təməli qoyuldu.

Milli Qurtuluş fəlsəfəsinin gələcəyə hesablanmış ən böyük strateji nəticəsi bu gün regionun ən güclü ordusu olan Azərbaycan Ordusudur. Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu xəttini böyük uzaqgörənliklə davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev ordumuzu dünyanın ən müasir texnologiyaları və sarsılmaz döyüş ruhu ilə yenidən formalaşdırdı.

Məhz Qurtuluşla başlayan inkişaf və sabitlik dövrü dövlətimizə iqtisadi müstəqillik qazandırdı. Bu müstəqillik isə hərbi sənayenin gücləndirilməsinə, şəxsi heyətin sosial müdafiəsinin yüksəldilməsinə və intellektual səviyyəsinin artırılmasına xidmət etdi.

Ulu Öndər Heydər Əliyevin ən böyük vəsiyyətini və qurtuluş missiyasının ali hədəfini reallığa çevirən Azərbaycan əsgəri 2020-ci ildə Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad edərək Dahi Rəhbərin ruhunu şad etdi. 15 İyun artıq bir xilas günü deyil, eləcə də Şuşada, Xankəndidə, Laçında dalğalanan üçrəngli bayrağımızın, ərazi bütövlüyünü tam bərpa etmiş qalib bir dövlətin şanlı hərbi qüdrət bayramıdır.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

## "Zabit təkmilləşdirmə kursu"nun növbəti buraxılış mərasimi keçirilib

Cari ilin hazırlıq planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin Təlim və Tədris Mərkəzində "Zabit təkmilləşdirmə kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Məzunları buraxılış münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edən general-mayor Namiq Bayramov onlara gələcək xidmətlərində uğurlar arzulayıb.




General-mayor N.Bayramov bu cür kursların ordumuzun döyüş qüdrətinin artırılması və peşəkar zabit kadrları ilə komplektləşdirilməsində xüsusi əhəmiyyətə malik olduğunu bildirib. "Müstəqilliyimizin, ərazi bütövlüyümüzün və suverenliyimizin qarantı olan bugünkü qüdrətli Azərbaycan Ordusu xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şah əsəridir. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində bütün sahələrdə olduğu kimi, ordu quruculuğu da inkişaf etdirilir, irimiqyaslı islahatlar həyata keçirilir. Həmin tədbirlər çərçivəsində Hərbi Hava Qüvvələrinin arsenalı da gündəngünə təkmilləşdirilir. 44 günlük Vətən müharibəsi zamanı gücünü bütün dünyaya nümayiş etdirən Azərbaycan Ordusu bu gün də döyüş hazırlığını və peşəkarlığını artırır. Bu günümüzdəki qüdrətli, döyüş hazırlığı yüksək olan ordumuz məhz keçirilən təlimlərin məntiqi sonluğudur. Bu təlimlərdə, təkmilləşdirmə kurslarında iştirak edərək müvəffəqiyyətlə bitirən bitirən hərbi qulluqçularımız ordumuzun peşəkarlığını yüksəldir və ölkəmizin müdafiəsində əvəzsiz rol oynayırlar", - deyə general-mayor N.Bayramov vurğuladı.

Sonra kurs birincisi mayor Təbriz Əlizadə çıxış edərək kurs müddətində onlara dəstək olan komandir heyətinə və təlimatçılara minnətdarlığını bildirdi. "Sevinirəm ki, "Zabit təkmilləşdirmə kursu"nu birinciliklə bitirdim. Təlimatçı və müəllim heyətinə biliklər, peşəkar məsləhətlər və dəstək üçün minnətdaram. Onların sayəsində biliklərimizi inkişaf etdirdik. Kursu bitirdikdən sonra hər bir zabitin üzərinə düşən məsuliyyəti daha yaxşı başa düşülür. Hər birimiz ordumuzun döyüş hazırlığını artırmaq üçün bütün gücümüzü səfərbər edəcəyik. Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da artırılması naminə əlimizdən gələni əsirgəməyəcəyik".

Daha sonra çıxış edən kurs ikincisi baş leytenant Kənan Kamalzadə və kurs üçüncüsü baş leytenant Aqşin Nəzərov hərbi xidmətin ali və şərəfli vəzifə olmasından danışıblar. "Bizim üçün hərbi xidmət sadəcə peşə deyil, Vətənə, dövlətə və xalqa sədaqət andıdır. Azərbaycan Ordusunun zabiti olmaq böyük şərəf olduğu qədər, yüksək məsuliyyət də tələb edir. Bizə göstərilən etimadı doğrultmaq, şəxsi heyətə nümunə olmaq və qarşımıza qoyulan tapşırıqları dəqiq və vaxtında yerinə yetirmək üçün bundan sonra da bilik və bacarıqlarımızı daim təkmilləşdirəcəyik. Qarşıdakı xidməti fəaliyyətimizdə əsas məqsədimiz Vətənimizin müdafiə qüdrətinin daha da möhkəmləndirilməsinə töhfə verməkdir. Kurs müddətində əldə etdiyimiz bilik və təcrübəni gündəlik xidməti fəaliyyətimizdə tətbiq edərək ordumuzun döyüş hazırlığının və döyüş qabiliyyətinin daha da artırılması istiqamətində əzmlə çalışacağıq".

Sonda kursu müvəffəqiyyətlə bitirənlərə sertifikatlar təqdim olunub, kurs birincisi tərəfindən rəmzi yaş kötüyünə emblem vurulub.

**"Azərbaycan Ordusu"**

# Qalib ordumuz beynəlxalq təlimlərdə gücünü daha da artırır



**(Əvvəli 1-ci səhifədə)**

NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) proqramı çərçivəsində də bir sıra fəaliyyətlər həyata keçirildi. Bu istiqamətdə keçirilən məsləhətçi görüşlərdə aidiyyəti bölmələrin NATO standartlarına uyarlılığın qiymətləndirilməsi və hazırlıq vəziyyəti təhlil edildi. Perspektivdə duran məsələlər və fəaliyyətlər planı müzakirə olundu.

Mart ayında isə Bakıda ƏİK proqramı çərçivəsində 1-ci səviyyəli qiymətləndirici kursu (ETC-49 - Evaluator Training Course) təşkil olundu. Kursun əsas məqsədi NATO-nun Ortaq Qüvvələr Birliyinə bəyan edilən hissə və bölmələrin qiymətləndirilməsi üçün ixtisaslı hərbi qulluqçuların sertifikatlaşdırılması idi.

Ümumilikdə, NATO ilə təşkil olunan kurslar, təlimlər və görüşlər Azərbaycan Ordusunun hərbi qulluqçularının peşəkarlığının artırılmasına, NATO standartlarına uyğunlaşma prosesinin düzgün təşkilinə və beynəlxalq hərbi əməkdaşlığın inkişafına mühüm töhfə verməkdədir.

### "Sülh Qalxanı-2026" birgə əməliyyat-taktiki təlimi

2026-cı ilin fevralında Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Əbu-Dabi şəhərində Azərbaycan Ordusu və BƏƏ



Silahlı Qüvvələrinin iştirakı ilə "Sülh Qalxanı-2026" adlı birgə əməliyyat-taktiki təlimi öz mötəbərliyi ilə yadda qaldı. Təlimlərə hazırlıq hələ 2025-ci ilin dekabrında Bakıda keçirilmiş əsas planlama konfransı ilə başlandı. Fevralın əvvəlində BƏƏ-yə yola düşən hərbi kontingentimiz hazırlıq məşqləri çərçivəsində təhlükəsizlik qaydaları, ssenarilər və icra olunacaq tapşırıqlar barədə ətraflı məlumatlandırıldı. İki ordunun xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə reallaşan təlimlər yaşayış məntəqə-



si, dağlıq ərazi və dəniz mühiti olmaqla üç əsas istiqamətdə keçirildi. Proqrama uyğun olaraq qanunsuz silahlı dəstələrin aşkarlanaraq zərərsizləşdirilməsi, ələ keçirilmiş gəmilərdə nəzarətin bərpası, girovların azad edilməsi və yaralıların təxliyəsi, ictimai təhlükəsizliyə təhdid yaradan sabotajların qarşısının alınması, yanğınsöndürmə və antiterror əməliyyatları icra edildi. Üç gün davam edən təlimdə hər iki ordunun hərbi qulluqçuları yüksək peşəkarlıq nümayiş etdirərək, qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlməyi bacardılar.

Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın təlimləri birgə izləməsi hərbi əməkdaşlığın yüksək səviyyəsini və bu tərəfdaşlığın strateji əhəmiyyətini nümayiş etdirdi. "Sülh Qalxanı-2026" təlimi hərbçilərimizin antiterror əməliyyatı üzrə peşə bacarıqlarının təkmilləşdirilməsinə, beynəlxalq təcrübə mübadiləsinin gücləndirilməsinə və regionda davamlı sülhün təmin olunmasına mühüm töhfə verdi. Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən "Sülh Qalxanı-2026" birgə əməliyyat-taktiki təlimi ilin diqqət çəkən bir döyüş hazırlığı fəaliyyəti oldu. Azərbaycan və BƏƏ prezidentlərinin təlimləri birgə izləməsi isə bu əməkdaşlığın strateji əhəmiyyətini göstərdi.

### "Heydər Əliyev-2026" birgə təlimi

2026-cı ilin aprelində Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq sazişinə uyğun olaraq, "Heydər Əliyev-2026" birgə təlimi təşkil olundu. Təlimdə Azərbaycan Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) hərbi qulluqçuları təmsil etdilər.Təlimin rəsmi hissəsi aprelin əvvəlində Sədərək sərhəd-keçid məntəqəsində - Araz çayı üzərindəki "Ümid" körpüsündə keçirilən rəmzi bayraq dəyişmə mərasimi ilə başladı. Naxçıvan və Qarsdan hərəkətə başlayan bayraq taqımlarının iştirakı ilə keçirilən bu mərasim iki ölkə arasındakı qardaşlıq münasibətlərinin sarsılmazlığını bir daha nümayiş etdirdi. Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kənan Seyidovun iştirakı ilə keçirilən tədbirdən sonra təlimə cəlb olunan şəxsi heyət və hərbi texnika təlim bölgəsinə yola düşdü.

"Heydər Əliyev-2026" təliminin keçirilməsində əsas məqsəd müasir döyüş prinsipləri əsasında birgə əməliyyatların planlaşdırılması, koordinasiyanın gücləndirilməsi və hərbi qulluqçuların döyüş hazırlığının artırılması idi. Təlim çərçivəsində iştirakçılar müxtəlif vaxt və şəraitlərdə döyüş tapşırıqlarını yüksək peşəkarlıqla icra etdilər.

Aprelin 22-də təlimin yekun mərhələsi olan "Yüksək Səviyyəli Müşahidəçi Günü" baş tutdu. İştirakçılar müasir hərbi texnika və silahların tətbiqi ilə keçirilən müxtəlif epizodları praktiki şəkildə nümayiş etdirdilər.

Sonda təlimdə fərqlənən hərbi qulluqçular mükafatlandırıldı və xatirə şəkilləri çəkdirildi.



### "Anadolu Ankası-2026" beynəlxalq axtarış-xilasetmə təlimi

2026-cı ilin aprelində Türkiyənin Konya şəhərində müxtəlif ölkələrin hərbçilərinin iştirakı ilə keçirilən "Anadolu Ankası-2026" ("Anatolian Phoenix-2026") beynəlxalq axtarış-xilasetmə təliminə Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) pilotları, paraşüt-desant və axtarış-xilasetmə bölmələri, texniki heyət və inventarımızda olan müvafiq aviasiya vasitələri cəlb olunmuşdu.

Aprelin 7-dən 17-dək davam edən təlim zamanı iştirakçılar mürəkkəb ssenariləri uğurla icra etdilər. İcra olunan tapşırıqlardan danışarkən xilasetmə əməliyyatlarını qeyd etmək yerinə düşər. Bu fəaliyyət müddətində paraşüt-desant bölmələri "fast rope" üsulu ilə əraziyə eniş edərək şərti terrorçu qrupunu zərərsizləşdirmə, pilotu təhlükəsiz təxliyə etmə tapşırıqlarını müvəffəqiyyətlə icra etdi. Hava dəstəkli tapşırıqların icrası zamanı SU-25, F-16 təyyarələri və T-70 helikopterlərinin cəlb olunduğu epizodlarda havada üstünlüyün əldə olunması və xilasetmə qruplarının atəş dəstəyi ilə mühafizəsi və s. fəaliyyətlər həyata keçirildi.

Qardaş ölkədə keçirilən təlimin əsas məqsədi beynəlxalq axtarış-xilasetmə qüvvələri arasında qarşılıqlı fəaliyyəti, operativliyi, qarşılıqlı uzlaşmanı artırmaq, habelə fəaliyyət mexanizmlərini dövrün tələblərinə uyğun təkmilləşdirmək, habelə şəxsi heyətin suda, quruda və müxtəlif relyef şəraitində xilasetmə əməliyyatlarının icra bacarıqlarını artırmaq, pilotların təhlükəsiz təxliyəsi və havadan dəstəyin təmin olunması tapşırıqlarının dövrün tələbləri çərçivəsində icrasını təmin etmək idi.

Aprelin 17-də keçirilən bağlanış mərasimində təlimin gedişatı təhlil olundu və statistik məlumatlar təqdim edildi. Azərbaycan HHQ mütəxəssisləri təlimdə yüksək peşəkarlıq nümayiş etdirərək, bölmələr arasında qarşılıqlı fəaliyyət və koordinasiya sahəsində qardaş ölkə hərbçiləri ilə uğurlu əməkdaşlıq təcrübəsi qazanıbdılar.

### "TurAz Qartalı-2026" - birgə taktiki uçuş

2026-cı ilin aprel-may aylarında ölkəmiz qardaş Türkiyə Hərbi Hava Qüvvələrinin də (HHQ) iştirakı ilə keçirilən "TurAz Qartalı-2026" birgə taktiki-uçuş təliminə ev sahibliyi etdi. Ölkələrimiz arasında hərbi əməkdaşlıq sazişinə əsasən, reallaşan təlim aviasiya sahəsində qarşılıqlı fəaliyyətin və koordinasiyanın yüksək səviyyəsini bir daha sübut etdi. Aprelin 27-də başlayan təlimin əsas məqsədi qarşılıqlı hava əməliyyatlarının planlaşdırılması və icrası üzrə təcrübə mübadiləsi aparmaq, hərbi pilotların peşəkarlığını modern tələblər çərçivəsində artırmaq və iki ölkənin HHQ-ləri arasında qarşılıqlı uzlaşmasını təmin etmək idi.

Təlim müddətində "TurAz Qartalı-2026" birgə taktiki-uçuş təlimi zamanı hərbi pilotlar mürəkkəb ssenarilər üzrə



birgə uçuşlar həyata keçirdilər. Həmçinin radioelektron mübarizə (REM), hədəflərin aşkarlanması və məhv edilməsi, fərdi və birgə idarəetmə və koordinasiya fəaliyyətləri üzrə müxtəlif ssenarilərdə tapşırıqlar icra olundu.

**(Ardı 5-ci səhifədə)**

# Demokratik və hüquqi dövlətin ən böyük dəyəri insandır

**Ümummilli Lider Heydər ƏLİYEV:**

*“...Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir”.*

*Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin, dinlərin və millətlərin dinc yanaşı yaşadığı qarşılıqlı hörmət və dözümlülük mühitinin hökm sürdüyü bənzərsiz bir coğrafiyadır.*



Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyev bu fikri ilə bəyan edirdi ki, demokratik və hüquqi dövlətin ən böyük dəyəri insandır. Bu cəmiyyətdə sabitliyin və inkişafın olması üçün hər bir fərd özünü təhlükəsizlikdə hiss etməli, dövlətin onun arxasında durduğuna inanmalıdır.

Qanun qarşısında hamı bərabərdir. Heç bir vətəndaşa etnik mənsubiyyətinə, danışdığı dilə və ya inandığı dinə görə imtiyaz verilə bilməz və eyni zamanda, o, diskriminasiyaya məruz qala bilməz. Bu hüquqların sadəcə kağız üzərində qalmaması, real həyatda qorunması dövlətin ən mühüm vəzifələrindən biridir. 1998-ci il iyunun 18-də ölkəmizdə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuş və insan hüquqlarının təmini dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Azərbaycanda İnsan Hüquqları üzrə səlahiyyətli müvəkkil təsisatının yaradılması ilə bağlı müddəalar ilk dəfə bu sənədlərdə öz əksini tapmış və bunun ardınca "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul olunmuşdur.

Ulu Öndərin əsasını qoyduğu bu uğurlu siyasi xətti illər keçdikcə daha da inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2007-ci il 18 iyun tarixini “İnsan Hüquqları Günü” kimi təsis etmiş və artıq 19 ildir ki, qeyd olunmaqdadır.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı 2002-ci ildə yaradılmışdır. Ombudsman Aparatı dövlət orqanları, yerli özünüidarə orqanları və vəzifəli şəxslər tərəfindən insan hüquqlarının pozulmasının qarşısını alan, müstəqil və qərəzsiz fəaliyyət göstərən bir qurumdur. Vətəndaşların pozulmuş hüquqlarının bərpası və şikayətlərinin araşdırılması, insan hüquqları sahəsində maarifləndirmə işinin təşkili, qanunvericiliyin təkmilləşdirilməsi barədə təkliflərin verilməsi, hərbi hissələr də daxil olmaqla, Milli Preventiv Mexanizm (MPM) qismində saxlanılan şəxslərin hüquqlarının qorunması Ombudsman Aparatının həyata keçirdiyi əsas missiyadır.

Ombudsmanın müharibə və postmüharibə dövründə Ermənistan tərəfindən törədilmiş insan hüquq pozuntularının araşdırılması ilə bağlı fəaliyyəti də xüsusi yer tutur. İşğaldan azad olunmuş torpaqlarımızda Ermənistan tərəfindən törədilən beynəlxalq ekoloji cinayətlər, mülki şəxslərin minaya düşməsi, hərbi qulluqçularımızın qanunsuz olaraq azadlıqdan məhrum edilmələri ilə bağlı reaksiyaları və müraciətləri olmuşdur.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən ənənəvi olaraq hər il bu əlamətdar gün ərəfəsində, 18 may-18 iyun tarixləri ölkə ərazisində "İnsan Hüquqları Aylığı" elan edilərək paytaxtda və regionlarda insan hüquqlarını təbliğ edən müxtəlif aktual mövzularda maarifləndirmə tədbirləri keçirilir. Bu isə sosial-hüquqi statusundan asılı olmayaraq hər kəsin - şəhid ailələrinin, müharibə iştirakçılarının, əlilliyi olan şəxslərin, uşaq, ahıl və əhalinin digər həssas qruplarının hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti gücləndirmək, əldə olunan uğurlar barədə ictimaiyyəti məlumatlandırmaq, qarşıda duran vəzifələri müəyyən etmək, cəmiyyətdə hüquq düşüncəsini və hüquq mədəniyyətini inkişaf etdirmək, ayrı-seçkiliyə, korrupsiyaya, zorakılığa, zərərli vərdişlərə qarşı mübarizənin zəruriliyini diqqətə çatdırmaq məqsədinə xidmət edir.

Müasir demokratik hüquqi dövlətlərdə insan hüquq və azadlıqlarının təmini dövlətin ali məqsədi hesab olunur. Azərbaycanda bu missiyanı həyata keçirən Ombudsman təsisatı cəmiyyətin bütün təbəqələrinin, o cümlədən xüsusi statusa malik olan hərbi qulluqçuların hüquqlarının etibarlı müdafiəsini təmin etmək üçün mütəmadi olaraq müxtəlif layihə və maarifləndirmə tədbirləri həyata keçirir. Bu baxımdan Müdafiə Nazirliyi ilə birgə hərbi hissələrdə təşkil olunan "Hüquq aylığı" çərçivəsindəki görüşlər xüsusi əhəmiyyət kəsb edir. "Hüquq aylığı" çərçivəsində ən çox diqqət yetirilən sahələrdən biri də məhz Silahlı Qüvvələr və hərbi hissələrdir. Hərbi xidmət özünəməxsus nizam-intizam və qaydalar tələb etdiyindən, hərbi qulluqçuların həm öz hüquqlarını, həm də üzərlərinə düşən vəzifələri dərindən bilməsi vacibdir. Keçirilən görüşlərin əsas məqsədi hüquqi maarifləndirmədir. Əsgər və zabit heyətinə hərbi qulluqçuların hüquqları, sosial müdafiəsi və humanitar hüquq normaları barədə ətraflı məlumatın verilməsi, gənc əsgərlərin xidmət şəraitinə uyğunlaşmasının asanlaşdırılması, hüquqlarının qorunmasındakı rolunun izahı "Hüquq aylığı" çərçivəsində həyata keçirilir. Bu aksiyalar sadəcə formal xarakter daşımır. Azərbaycan Ordusunun daxili mühitində şəffaflığı artırır, nizam-intizamı gücləndirir və əsgərlərimizə dövlətin diqqət və qayğısını hər an hiss etməsinə kömək edir. Şikayət və ya təklifi olan hərbi qulluqçuların Ombudsman nümayəndələri tərəfindən qəbulu həyata keçirilir.

Hərbi hissələrdə də hüquqi maarifləndirmə və monitorinq tədbirləri gücləndirilir. Güclü ordu təkcə müasir silahlarla deyil, həm də yüksək nizam-intizam və əsgərin hüquqlarının ali səviyyədə qorunması ilə ölçülür. Bu baxımdan Ombudsman Aparatının hərbi hissələrdə həyata keçirdiyi fəaliyyət dövlətin öz əsgərinə verdiyi dəyərin bariz nümunəsidir. Aparatın tərkibində fəaliyyət göstərən hərbi qulluqçuların hüquqlarının müdafiəsi sektoru Müdafiə Nazirliyi və başqa digər hərbi birləşmələrlə sıx əməkdaşlıq edir. Ombudsman və aparatın məsul əməkdaşları, hərbi ekspertlər və psixoloqlar hərbi hissələrə və çətin relyefli bölgələrdə yerləşən postlara öncədən xəbərdarlıq etmədən baş çəkmək hüququna malikdirlər. Bu reydlər zamanı əsgər yataqxanaları, yeməkxanalar, tibb məntəqələri və asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş yerlər vizual olaraq nəzərdən keçirilir. Bu, Ombudsman təsisatının həm də monitorinq funksiyasını yerinə yetirməsinə şərait yaradır. Əsgərlərin məişət şəraiti, qidalanması, tibbi təminatı və geyim-tədarükü şəxsən yoxlanılır. Ziyarətlər zamanı hərbi qulluqçularla təkbətək, anonim söhbətlər də aparılır. Baş verə biləcək hər hansı psixoloji, fiziki zorakılıq hallarının tamamilə aradan qaldırılması, hərbi xidmət zamanı yaralanmış və ya xəsarət almış şəxslərin reabilitasiyası və sosial təminat hüquqlarının qorunması bu aparatın əsas fəaliyyət istiqamətlərindəndir.

Bu görüşlər rəsmi mühazirələrdən daha çox interaktiv diskussiyalar və fərdi qəbullar formatında keçirilir. “İnsan Hüquqları Aylığı” çərçivəsində şəxsi heyətlə keçirilən görüşlərdə hərbi qulluqçuların hüquq və vəzifələri, nizamnamə qaydaları və beynəlxalq humanitar hüquq normaları izah olunur. Onların müraciətləri və şikayətləri yerindəcə dinlənilir, araşdırılması üçün qeydiyyata alınır. Hər bir əsgər dövlətin mühafizəsinə əmanət edilmiş dəyərdir. Vətəni qoruyanların hüquqlarının qorunması Azərbaycan Ordusunun sarsılmazlığının və demokratik dövlət quruculuğunun ən mühüm şərtidir.

18 may-18 iyun tarixlərində ölkədə keçirilən "İnsan Hüquqları Aylığı" cəmiyyətdə insan hüquqlarına dair məlumatlılığı artırmaq və bu hüquqların müdafiəsi sahəsində fəaliyyəti təşviq etmək məqsədi daşıyır, hüquq pozuntularına qarşı cəmiyyətin həssaslığını artırır. Bu baxımdan ölkəmizdə insan hüquqlarının qorunması sahəsində də ciddi islahatlar aparılır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Konstitusiyasının maddələrindən böyük hissəsi də insan hüquq və azadlıqlarına həsr olunub.

**Sevda AŞIROVA**
**"Azərbaycan Ordusu"**

## Naxçıvan Hərbi Kollecində “Narkomaniyaya qarşı mübarizə və sağlam gələcək” mövzusunda maarifləndirici tədbir keçirilib

*Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində "Narkomaniyaya qarşı mübarizə və sağlam gələcək" mövzusunda maarifləndirici tədbir keçirilib.*





Milli Müdafiə Universiteti xəbər verir ki, tədbirdə Naxçıvan Hərbi Kolleci rəisinin tədris üzrə müavini - şöbə rəisi polkovnik-leytenant Hikmət Hacıyev və Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin nümayəndəsi polis polkovnik-leytenantı Mirabdulla Seyidov çıxış edərək narkomaniyanın cəmiyyət üçün yaratdığı ciddi təhlükələrdən, xüsusilə gənclərin sağlam inkişafına mənfi təsirlərindən ətraflı bəhs ediblər. Çıxışlarda narkotik vasitələrin insan sağlamlığına, ailə institutuna və sosial mühitə vurduğu zərərdən danışılıb, bu bəlanın qarşısının alınmasında maarifləndirmə tədbirlərinin və sağlam həyat tərzinin təbliğinin əhəmiyyəti vurğulanıb.

Tədbirin sonunda mövzu ilə bağlı maarifləndirici videoçarx nümayiş olunub, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Qalib ordumuz beynəlxalq təlimlərdə gücünü daha da artırır



(Əvvəli 3-cü səhifədə)

Aprelin 27-dən mayın 2-nə qədər davam edən təlimdə pilotlar müxtəlif şəraitlərdə uçuş bacarıqlarını nümayiş etdirdilər. O cümlədən yeni texnika və silah sistemlərinin tətbiqi təlimin effektivliyini artıran əsas elementlərdən oldu. Təlim rəhbərləri iştirakçı heyətin fəaliyyətini yüksək qiymətləndirərək, bu tədbirin iki qardaş ölkənin hava məkanının təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyət kəsb etdiyini vurğuladılar.

### "EFES-2026" çoxmillətli birgə təlimi

"EFES-2026" təlimi bir daha göstərdi ki, Azərbaycan və Türkiyənin hərbi əməkdaşlığı regional sülhün və təhlükəsizliyin ən etibarlı təminatçısıdır. Qeyd edək ki, 2026-cı ilin mayında Türkiyə Respublikasında baş tutan "EFES-2026" təliminə 50 ölkədən 10300-dən çox hərbi qulluqçu cəlb olunmuşdu. Bu təlim sadəcə güc nümayişi deyil, həm də beynəlxalq hərbi koordinasiyanın və müasir döyüş konseptlərinin sınaq meydanı oldu. "EFES-2026"-nın əsas məqsədi genişmiqyaslı münaqişələr zamanı ölkələrin quru, hava və dəniz qüvvələrinin birgə fəaliyyətini tam qarşılıqlı inteqrasiya etməkdir.



Türkiyə Respublikasında Azərbaycan Ordusunun hərbi qulluqçularının da iştirakı ilə keçirilən "EFES-2026" çoxmillətli təliminin əvvəlcə hazırlıq mərhələsi keçirildi. Plana uyğun olaraq, iştirakçı ölkələrin hərbi qulluqçuları müxtəlif döyüş ssenariləri üzrə qərargah fəaliyyətləri ilə yanaşı, müvafiq praktiki tapşırıqları da icra etdilər.

Müasir döyüşaparma və özünümüdafiə üsulları nəzərə alınmaqla, təlim qrupları yaşayış məntəqələrində şərti düşmənin hücum və təxribatlarının qarşısının alınması, obyektlərin mühafizəsi, yaralı hərbi qulluqçuya ilkin tibbi yardımın göstərilərək təxliyə olunması, eləcə də tunel, bunker və mağaralarda döyüşün aparılması üzrə tapşırıqları yerinə yetirdilər.

Təlimdə şərti düşmənin ağır texnikasının və canlı qüvvəsinin məhv edilməsi məqsədilə top və minaatanlardan, eləcə də müxtəlif pilotsuz uçuş aparatlarından (PUA) istifadə edildi.

"EFES-2026" təliminin aktiv fazasında iki qardaş ölkə ilə yanaşı, Albaniya, Niger, Nigeriya və Rumıniya ordularının nümayəndələri mağara, sığınacaq və tunellərdə axtarış, eləcə də dağçılıq hazırlığı üzrə məşqlər keçdilər. Təlimin növbəti mərhələsində iştirakçı ölkələrin hərbi qulluqçuları dənizdən sahilə hücum tapşırığını icra etdilər. Yüksəksürətli katerlərlə sahildə yerləşən şərti düşmən mövqelərinə yaxınlaşan qruplar, intensiv atəş dəstəyi altında quruya çıxararaq, istehkamları dəf edərək müdafiə mövqelərini qısa müddətdə zərərsizləşdirdilər.

Bundan əlavə, əməliyyat planına uyğun olaraq, iştirakçı ölkələrin hava-desant bölmələri şərti düşmən gəmisinin ələ keçirilməsi tapşırığını da yerinə yetirdilər. Hücum helikopterləri ilə hədəfə yaxınlaşan qruplar qısa müddət ərzində gəminin göyərtəsinə enişi həyata keçirdilər. Təlim öz mötəbərliyi, müxtəlifliyi və rəngarəngliyi ilə yadda qaldı.

"EFES-2026" çoxmillətli təliminin mötəbərliyinin əsas göstəricisi o idi ki, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak edirdi. Təlimi izləyən Türkiyə Prezidenti çıxışı zamanı "Yüksək Səviyyəli Müşahidəçi Günü"nün iştirakçılarını salamladı, "EFES-2026" təliminin regional və qlobal sülhə, əmin-amanlığa və sabitliyə böyük töhfə verdiyini vurğuladı. Təlimin yekun mərhələsində təşkil olunan "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev, müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələri Komandanı general-leytenant Namiq İslamzadə və nazirliyin digər vəzifəli şəxsləri iştirak etdilər.



Səfər çərçivəsində müdafiə naziri general-polkovnik Zakir Həsənov qardaş ölkənin milli müdafiə naziri cənab Yaşar Gülerlə, Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev isə türkiyəli həmkarı ordu generalı Selçuk Bayraktaroğlu ilə görüşdülər. Görüşlərdə ölkələrimiz arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlıqların mövcud vəziyyəti və perspektivləri müzakirə edildi.



"Yüksək Səviyyəli Müşahidəçi Günü" çərçivəsində qonaqlar təşkil olunan Müdafiə Sənayesi Sərgisində nümayiş etdirilən hərbi silah və texnika nümunələri ilə tanış oldular.

Məlumdur ki, iki qardaş ölkə - Azərbaycan və Türkiyə arasında əlaqələr dövrün ən yüksək mərhələsindədir. Təməli xoş mərama əsaslanan qardaşlıq, tərəfdaşlıq və müttəfiqlik münasibətləri yüksək etimadı özündə ehtiva etməklə bütün dünya ölkələri üçün bir nümunədir.

Yaxın və uzaq coğrafiyamızda baş verən münaqişələrin və qanlı toqquşmaların fonunda Azərbaycan və Türkiyənin regionda dünyada sülh və sabitliyin qorunmasındakı rolları, humanizm prinsiplərinə sərgilədiyi mövqeyi danılmazdır. İki qardaş ölkənin beynəlxalq hüquq və norma prinsiplərinin qorunmasına görə nümayiş etdirdiyi birgə səyləri bu gün dünyada analoqu olmayan bir təşəbbüsdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2021-ci ilin 15 iyun tarixində imzaladığı Şuşa Bəyannaməsi əlaqələrin möhkəmlənməsində və daha da dərinləşməsinə mühüm təsir göstərən tarixi sənəd olmaqla, dostlarımıza güvən, məkrli niyyətli qüvvələrə isə gözdağıdır. Şuşa Bəyannaməsi gələcəkdə bir millət, iki dövlətin qarşılıqlı maraqlarının qorunması və dünyəvi məsələlərdə bərabər addım atılmasında mühüm faktora çevrilən tarixi sənəd və mötəbər hadisə idi. Qardaşlıq bəyannaməsinin əsas istiqamətlərindən biri də hərbi əməkdaşlığın daha da dərinləşdirilməsi və qarşılıqlı təcrübə mübadiləsi məsələləri oldu. Qardaş Türkiyə ordusunun bu gün dünyada ən güclü və müasir ordulardan birinə sahib olması həqiqətdir. Əsrin ədalət müharibəsində zəfər qazanan Şanlı Azərbaycan Ordusu bu gün güclü qardaş Türkiyə Ordusu ilə bərabər öz gücünü və qüdrətini daha da artırır. Bu güc sülhü özündə ehtiva etsə də, şər qüvvələrin baş qaldıracağı təqdirdə düşmənin başını əzə biləcək qabiliyyətə də malikdir.



### Nəticə

Azərbaycan Ordusunda döyüş hazırlığının artırılması prosesində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi mühüm əhəmiyyət daşıyır. Müasir hərbi çağırışlar ordunun şəxsi heyətindən daha operativ, peşəkar və texnoloji cəhətdən hazırlıqlı olmağı tələb edir. Bu baxımdan qabaqcıl ölkələrin silahlı qüvvələrinin təcrübəsindən faydalanmaq döyüş qabiliyyətinin yüksəldilməsinə töhfə verir. Beynəlxalq təlimlərdə iştirak və tərəfdaş ölkələrlə əməkdaşlıq şəxsi heyətin bilik və bacarıqlarının inkişafına şərait yaradır. Eyni zamanda, müasir idarəetmə və komanda-nəzarət sistemlərinin mənimsənilməsi əməliyyatların effektivliyini artırır. Xarici təcrübənin milli hərbi ənənələr və ölkənin təhlükəsizlik maraqları ilə uyğunlaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu yanaşma ordunun qarşıya çıxan təhdidlərə daha operativ və səmərəli reaksiya verməsini təmin edir. Hərbi təhsil sisteminin təkmilləşdirilməsi və innovativ metodların tətbiqi də döyüş hazırlığının yüksəldilməsində mühüm rol oynayır. Beləliklə, beynəlxalq təcrübənin məqsədyönlü şəkildə öyrənilməsi və tətbiqi Azərbaycan Ordusunun peşəkarlığının, hazırlıq səviyyəsinin və müdafiə potensialının daha da gücləndirilməsinə xidmət edir. Bu isə ölkəmizin ərazi bütövlüyü və suverenliyinin etibarlı şəkildə qorunmasının əsas amillərindəndir.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

## Naxçıvanda şəhidlərimizin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib







Naxçıvan Muxtar Respublikasında Vətən uğrunda şəhidlik zirvəsinə yüksələn baş leytenant Sahil Məmmədov, leytenant Ənvər Əliyev və gizir Ümid Novruzlunun əziz xatirələrinə həsr olunmuş anım tədbirləri keçirilib.

Tədbirlərdə icra hakimiyyətlərinin, Əlahiddə Ümumqoşun Ordunun, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, şəhid ailələri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, şəhidlərimizin məzarları ziyarət edilərək üzərinə gül dəstələri düzülüb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirlərdə çıxış edənlər şəhidlərimizin həyat və xidmət yolundan, döyüş əməliyyatları zamanı göstərdikləri şücaət nümunələrindən bəhs edərək, onların igidliyinin gənc nəsil üçün nümunə olduğunu vurğulayıblar. Qeyd olunub ki, xalqımız və dövlətimiz şəhidlərimizin xatirəsini daim uca tutur və onların göstərdikləri qəhrəmanlıqlar gənc nəsillərə örnəkdir. Vurğulanıb ki, qəhrəman Azərbaycan oğulları öz canları bahasına torpaqlarımızın azadlığını təmin edərək xalqımıza qələbə sevincini yaşadıblar.

Şəhidlərimizin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbirlərin bədii hissəsində vətənpərvərlik ruhunda şeirlər səsləndirilib və ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib.

* * *

Baş leytenant Sahil Məmmədov 1991-ci ildə Babək rayonunun Qaraçuq kəndində dünyaya göz açıb. Hələ uşaq yaşlarından qəlbində alovlanan hərb sənəti sevgisi onu addım-addım zirvəyə doğru aparıb. O, əvvəlcə Heydər Əliyev adına Hərbi Liseydə, daha sonra isə indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alaraq hərbi sirlərə dərindən yiyələnib. Təhsilini uğurla başa vuraraq "leytenant" rütbəsi ilə xidmətə başlayıb. Sahil nizam-intizamı və peşəkarlığı ilə seçilib. O, sağlığında bir sıra medallar ilə təltif edilib.

2020-ci il sentyabrın 27-də başlayan əks-hücum əməliyyatı onun ömrünün ən mühüm sınağı və şərəf silsiləsi olub. Vətən müharibəsinin ilk günündən ön cəbhəyə atılan Sahil torpaqlarımızın azadlığı uğrunda gedən ağır döyüşlərdə şəxsi heyətə rəhbərlik edib.

Sahil Məmmədov sentyabrın 28-də Murovdağ silsiləsində düşmən tərəfin hücumunun qarşısını kəsərkən şəhidlik zirvəsinə ucalıb. Bu gün ondan geriyə bütöv bir xalqın qürur mənbəyi olan şərəfli bir ad və Vətənə əmanət bir qız övladı yadigar qalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda döyüş tapşırıqlarını şərəflə, qorxmadan yerinə yetirdiyinə görə baş leytenant Sahil Məmmədov dövlət başçısının müvafiq sərəncamları ilə ölümündən sonra yüksək dövlət təltiflərinə - "Azərbaycan Bayrağı" ordeninə, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medallarına layiq görülüb.

* * *

Şəhid leytenant Ənvər Əliyev 4 iyun 1997-ci ildə Şərur rayonunun Axaməd kəndində anadan olub. Orta təhsilini doğulduğu kənddə aldıqdan sonra Heydər Əliyev adına Hərbi Liseydə, daha sonra isə Türkiyə Respublikasının Quru Qoşunları Ali Hərbi Məktəbində və indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alıb.

Azərbaycan Ordusunun zabiti kimi leytenant Ənvər Əliyev Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılıb, Suqovuşan istiqamətində gedən döyüşlərdə igidlik və peşəkarlıq nümayiş etdirib. 2020-ci il oktyabrın 15-də döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Şərur şəhər Şəhidlər xiyabanında dəfn edilən Ənvər Əliyev göstərdiyi şücaətə görə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

* * *

Gizir Ümid Novruzlu 7 iyun 1992-ci ildə Babək rayonunda doğulub. Həqiqi hərbi xidmətini başa vurduqdan sonra Vətən sevgisi onu yenidən ordu sıralarına qaytarıb və o, 2012-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib.

Gizir Ümid Novruzlu Vətən müharibəsində Şuşa istiqamətində gedən ağır döyüşlərdə böyük şücaət göstərərək şəhadət zirvəsinə ucalıb. Ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.







**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

## Rəsmi Bakının məqsədi regionda sülhə nail olmaq və iqtisadi inkişafa təkan verməkdir

Bu ilin əvvəlindən başlayaraq Azərbaycana həm Avropa, həm də Şərq dövlətlərindən hərbi nümayəndə heyətləri gələrək əməkdaşlıq əlaqələrini genişləndirməyə çalışırlar.

Hazırda Azərbaycan ABŞ, Almaniya, Avstriya, Böyük Britaniya, Estoniya, Fransa və digər Avropa dövlətləri ilə yanaşı, Çin, Qazaxıstan, Özbəkistan, Pakistan, Türkiyə və başqa dövlətlərlə də hərbi əməkdaşlıq əlaqələrini davam etdirir. Yuxarıda adı çəkilən dövlətlər arasında NATO kimi hərbi-siyasi bloka daxil olan və bu blokdan kənarda qalan dövlətlər də var. İstər NATO üzvü olan, istərsə də üzv olmayan dövlətlərin Azərbaycan ilə hərbi əməkdaşlığa can atmaları heç də təsadüfi xarakter daşımır.

AZƏRTAC xəbər verir ki, Rusiya-Ukrayna müharibəsi və İran ətrafında cərəyan edən hərbi-siyasi proseslər qlobal güclərə etimadın azalmasına, eyni zamanda, beynəlxalq təhlükəsizlik balansının dəyişməsinə səbəb olub. ABŞ Prezidenti Donald Trampın Avropanın təhlükəsizliyində əvvəlki kimi fəal rol oynamaq istəməməsi və ümumi təhlükəsizlik məsələlərinə maliyyə dəstəyini məhdudlaşdırması Avropa ölkələrini yeni çıxış yolları axtarmağa sövq edib. ABŞ-ın NATO üzvü olan Avropa dövlətlərini İrana qarşı mümkün hərbi əməliyyatlara qoşulmağa çağırmasına baxmayaraq, bu təşəbbüs dəstək qazanmayıb. Nəticədə, Vaşinqton Avropanın təhlükəsizliyinin təmin edilməsində üzərinə götürdüyü bəzi öhdəlikləri yenidən nəzərdən keçirməyə başlayıb. Bu şəraitdə Avropa artıq yalnız bir güc mərkəzinə bağlı qalmaq istəmir. Enerji təchizatını şaxələndirdiyi kimi, hərbi-siyasi tərəfdaşlıqlarını da genişləndirməyə çalışır.

Azərbaycan 2020-ci ildən sonra beynəlxalq ictimaiyyətə öz ərazi bütövlüyünü təmin etmək və torpaqlarını işğaldan azad etmək əzmində və gücündə olduğunu nümayiş etdirdi. Bu gün Azərbaycan real döyüş meydanında qələbə qazanmış, peşəkar və güclü orduya malik dövlət kimi tanınır. 44 günlük Vətən müharibəsində əldə olunan Zəfər Azərbaycan Silahlı Qüvvələrinin imkanlarını və döyüş qabiliyyətini bütün dünyaya göstərdi. Təsadüfi deyil ki, müharibədən sonrakı dövrdə Azərbaycanla İtaliya, Rumıniya və digər Avropa ölkələri arasında hərbi əməkdaşlığın genişləndirilməsinə dair sənədlər imzalanıb. Bəs bu əməkdaşlıq Azərbaycana nə qazandıra bilər? İmzalanan sənədlər birgə hərbi təlimlərin keçirilməsini, təcrübə və bilik mübadiləsini, eləcə də hərbi qurumlar arasında davamlı dialoqun və əməkdaşlığın inkişafını nəzərdə tutur.

Müxtəlif ölkələrlə hərbi əməkdaşlığın genişləndirilməsi ordunun fərqli hərbi ssenarilərə daha yaxşı hazırlaşmasına şərait yaradır. Hərbi-texniki əməkdaşlıq isə yeni texnologiyaların, silah sistemlərinin və müasir idarəetmə yanaşmalarının öyrənilməsi və tətbiqi üçün əlavə imkanlar açır. Eyni zamanda, müxtəlif tərəfdaşlarla əlaqələrin inkişafı hərbi sahədə hər hansı bir mərkəzdən asılılığın azalmasına və əməkdaşlıq imkanlarının şaxələndirilməsinə xidmət edir.

Beləliklə, Avropa ölkələri Ukrayna müharibəsinin ortaya çıxardığı təhlükəsizlik çağırışlarını nəzərə alaraq Azərbaycanla münasibətləri yalnız enerji sahəsində deyil, hərbi istiqamətdə də inkişaf etdirməyə çalışırlar. Bu əməkdaşlıq həm tərəflər arasında strateji əlaqələrin möhkəmlənməsinə, həm də regional və qlobal təhlükəsizlik məsələlərində qarşılıqlı maraqların təmin olunmasına xidmət edir.

Ötən ay Bakıya rəsmi səfər edən İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni mətbuata açıqlamasında bildirib ki, Avropa regionunda inteqrasiya əlaqələri nə qədər güclü olarsa, təhlükəsizlik və sabitliyin təmin edilməsi üçün imkanlar da bir o qədər genişlənər.

Dünyada geosiyasi rəqabətin getdikcə dərinləşməsi və müxtəlif bölgələrdə yeni gərginlik ocaqlarının yaranması fonunda Azərbaycanın öz təhlükəsizliyini təmin etmək qabiliyyəti, güclü hərbi potensialı və müstəqil siyasəti Avropa ölkələrinin diqqətini cəlb edir. Azərbaycan isə təhlükəsizlik məsələlərində qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığa açıq mövqe nümayiş etdirir. Rəsmi Bakının əsas məqsədi regionda dayanıqlı sülhün təmin olunmasına, iqtisadi inkişafın sürətləndirilməsinə və əməkdaşlıq imkanlarının genişləndirilməsinə töhfə verməkdir.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Azərbaycan Ordusunun yaranması və formalaşması tarixi.

**Suallar:**

1. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu.
2. Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri.

### Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu

Ordu bir dövlətin, onun xalqının, milli sərvətlərinin, mədəniyyətinin, tarixinin, bütövlüyünün və birliyinin qorunmasının əsas amilidir. Ordu həm də güc göstəricisi, siyasi arenada dövlətlərin sözünün kəsərini artıran, mövqeyini qəbul etdirən böyük bir silahdır. İstər keçmiş, istərsə də müasir geosiyasi şərait güclü dövlət olmağın əsas şərti kimi qüdrətli orduya sahib olmağı ön plana çıxarır.

Azərbaycan müstəqillik əldə edənə qədər bəşəriyyət tarixinin qanlı və dəhşətli hərbi-feodal müstəmləkə rejimi olan Rusiya imperiyasının tərkibində idi. Birinci Dünya müharibəsinin gedişində və Romanovlar monarxiya rejiminin devrilməsi nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, parlamentli respublika formasında dirçəldi. Birinci Dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərinin yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb bir daxili və beynəlxalq tarixi şəraitdə fəaliyyət göstərən Azərbaycan Parlamenti öz fəaliyyətinin mühüm hissəsini dövlət müstəqilliyinin qorunub saxlanılmasına və ordu quruculuğu məsələlərinə yönəltmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Rusiya imperiyası dövründə keçmiş Tatar süvari alayının əsgərlərindən formalaşdırılmış və general Əlağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman Korpusunun əsasında ilk ordu hissəsi olan "Əlahiddə Azərbaycan Korpusu" yaradıldı. Bu addım xalqımızın dövlətçilik tarixində özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin ən böyük xidmətlərindən biri kimi tarixləşdi. Gənc Demokratik Cümhuriyyətin yaradıcıları milli dövlətçiliyimizi qorumaq, ölkəni xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün özünün silahlı qüvvələrini yaratmaqla, qarşısıalınmaz bir prosesə başladılar.

1918-ci ildə dünyada və regionda baş verən ictimai-siyasi hadisələrə görə Azərbaycanda mövcud olan milli hərbi qüvvələrin və Azərbaycan dövlətinə göndərilmiş olan Osmanlı hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı və ordu hissələrinin fəaliyyətinə rəhbərlik Azərbaycan hökumətinin razılığı ilə Qafqaz İslam Ordusu komandanına həvalə edildi. Qafqaz İslam Ordusunun mövcudluğu dövrü Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunun birinci mərhələsini təşkil etmişdir. 1918-ci il noyabrın 1-dən isə Cümhuriyyətin ordu quruculuğunun ikinci mərhələsi başlayır. Həmin gün Azərbaycan hökuməti Hərbi Nazirliyin bərpa edilməsi haqqında qərar qəbul etdi. Fətəli xan Xoyski hərbi nazir, Səməd bəy Mehmandarov nazir müavini təyin edildi və nazirliyin formalaşdırılması ona həvalə edildi. "Mudros" (30.10.1918-ci ildə Osmanlı və Antanta dövlətləri arasında bağlanmış sülh müqaviləsi) müqaviləsinin şərtlərinə görə Azərbaycana gəlməli olan ingilis qüvvələri komandanı general Tomson Bakı şəhərinin istər iqtisadi baxımdan, istərsə də hərbi-siyasi cəhətdən mühüm strateji mərkəzi olması səbəbindən nəzarəti tamamilə əlində saxlamaq məqsədilə türk qoşunları kimi Azərbaycan Ordusunun da 1918-ci il noyabrın 17-dək Bakı şəhərini tərk etməsini tələb edirdi. Bu səbəbdən 1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncə şəhərinə köçürüldü. Hərbi Nazirliyin Gəncə şəhərinə köçürülməsi hökumət orqanlarının əlaqələrində və bütövlükdə ordunun formalaşması prosesində çətinliklər yaradırdı.

1918-ci ilin sonu 1919-cu ilin əvvəlində yenidən Hərbi Nazirliyin rəhbərliyində və strukturunda qismən dəyişiklik edildi ki, bu da ordunun formalaşması prosesinə müsbət təsir göstərdi. Tam artilleriya generalı S.Mehmandarov hərbi nazir, general-leytenant Ə.Şıxlinski hərbi nazirin müavini təyin edildi. Hərbi Nazirliyin bərpa edilməsindən sonra, ilk növbədə, pərakəndə olan hissələri möhkəmləndirmək, onları vahid rəhbərlik altına gətirmək üçün mərkəzi hərbi idarəetmə orqanlarının təşkilinə diqqət yetirildi. Qısa müddət ərzində Hərbi Nazirliyin aparatı və Ümumi Qərargah (Qlavnıy ştab) yaradıldı. Orduda xidmətin təşkilinin hüquqi əsasda nizamlanmasına xüsusi diqqət yetirildi. Qısa müddət ərzində Azərbaycan Ordusunun yeni qanunvericilik bazasının yaradılması mümkün olmadığı üçün 1917-ci il yanvarın 1-dək keçmiş Rusiya imperiyasında qəbul edilmiş hərbi qanunvericilik aktları qüvvədə saxlanılırdı. Ancaq bu qanunvericilik aktlarının Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi, milli orduda xidmətin bu və ya digər uyğun gəlməyən tələbləri ləğv edilirdi. Ordu quruculuğuna türk və rus təcrübəsinin güclü təsirə malik olmasına baxmayaraq, Azərbaycanda milli zəminə söykənən ordu formalaşdırıldı. Azərbaycan dili orduda da dövlət dili elan edildi. Azərbaycan dilinin öyrənilməsi və savadsızlığın ləğvi üçün orduda kurslar yaradıldı. Azərbaycan döyüşçüsünün mənəvi dünyasının yaradılmasında mənsub olduğu xalqın tarixi keçmişinin öyrənilməsinə, onun qəhrəmanlıq nümunələri üzərində tərbiyələndirilməsinə böyük əhəmiyyət verilirdi. Hərbi Nazirliyin bərpasının ilk günlərindən hərbi qulluqçuların geyim formasının da milliləşdirilməsi və onun Azərbaycan Ordusuna uyğunlaşdırılması üçün zəruri tədbirlər görüldü.

Yeni dəyərlər üzərində qurulan ordunun milli kadrların hazırlanması da Hərbi Nazirliyin qarşısında duran əsas vəzifələrdən biri idi. Bu vəzifənin həllinə nail olmaq üçün hələ türk qoşunlarının Azərbaycanda olduğu vaxt Gəncə şəhərində fəaliyyət göstərən hərbi məktəbin fəaliyyəti yenidən quruldu və onun statusu artaraq praporşiklər məktəbinə çevrildi. Praporşiklər məktəbinin bazasında Hərbiyyə məktəbi açıldı. Bundan başqa, Azərbaycan Ordusunun milli hərbi kadrlar hazırlayan istehkam və hərbi dəmiryolçular məktəbi, həmçinin feldşer məktəbi açıldı. Obyektiv çətinliklər (Sentrokaspi diktaturası və ingilis müdaxiləçilərinin təmizlənilməsi) üzündən Hərbi Dəniz Qüvvələrinin təşkilinə 1919-cu illərin sonlarında başlanıldı. Hərbi Nazirlik Hərbi Hava Qüvvələrinin təşkilinin zəruriliyini nəzərə alaraq müvafiq kadrların hazırlanması üçün 1919-cu ildə Azərbaycan-Gürcüstan hərbi əməkdaşlıq müqaviləsi bağladı. Bu müqaviləyə əsasən, Azərbaycandan bir qrup heyət təyyarəçi peşəsinə yiyələnməsi üçün Tiflis Aviasiya Məktəbinə göndərildi. Milli kadrlara olan ehtiyacların ödənilməsi üçün isə Hərbi Nazirlik 1920-ci ildə Azərbaycanda Hərbi Təyyarəçilər Məktəbini açdı.

### Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri

Azərbaycanın zəngin dövlətçilik tarixində güclü, mütəşəkkil, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması, inkişafı müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyünü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Güclü siyasi iradəyə, yüksək sərkərdəlik məharətinə malik Azərbaycan xalqının Ümummilli Liderinin rəhbərliyi ilə milli ordumuzun yaradılmasına ötən əsrin 90-cı illərində Naxçıvanda başladı. O dövrdə Ulu Öndərin muxtar respublikada ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla bərabər, müstəqil Azərbaycanda Milli Ordu quruculuğu prosesinin növbəti mərhələsinin başlanğıcı oldu.

Azərbaycan Ordusunun yaranması və müasir tələblər səviyyəsində formalaşması məhz ağır, mürəkkəb və keşməkeşli yollardan keçmişdir. Ermənistanın təcavüzü, dövlətçiliyin itirilməsi təhlükəsi, daxili çəkişmələr, yeni yaradılmış özünümüdafiə taborlarının ayrı-ayrı siyasi məqsədlərə xidmət etməsi bir tərəfdən torpaqlarımızın işğalına şərait yaradır, digər tərəfdən ordumuzun yaranmasına mane olurdu. Böyük sərkərdə, hərb elminin bütün incəliklərini dərindən bilən Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra respublikamızın həyatının bütün sahələrində olduğu kimi, ordu quruculuğu da planlı surətdə həyata keçirilməyə başladı. İlk növbədə, qanunsuz hərbi dəstələr buraxıldı, Silahlı Qüvvələr dövlət nəzarətinə alındı. Digər ölkələrin nümunələrindən, Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin təcrübəsindən istifadə olunaraq mükəmməl hərbi qanunvericilik sistemi yaradıldı. Ulu Öndərin titanik fəaliyyəti nəticəsində güclü Azərbaycan Ordusu yaradılmağa başlandı. Ordu quruculuğunun elmi-təcrübi əsaslar üzərinə qoyulması, vahid komandanlıq prinsipinin həyata keçirilməsi Qarabağ bölgəsində gedən döyüş əməliyyatlarına öz müsbət təsirini göstərdi. Ulu Öndərin sərkərdəliyi ilə o dövr üçün olduqca gərəkli Horadiz əməliyyatı keçirildi. Qələbə ilə nəticələnən bu əməliyyat ordunun şəxsi heyətinin döyüş əzmini, qələbə ruhunu kükrətdi. Azərbaycan əsgəri inandı və ictimaiyyəti inandırdı ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bu inam xalqın orduya münasibətinin əsas tərkib hissəsi oldu.

1993-cü il noyabrın 2-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Dövlət Televiziyası və Radiosu ilə xalqa müraciətindən sonra qəlbində Vətən sevgisi olan, respublikamızdan kənarda hərbi xidmət keçən peşəkar zabitlərin, kadrların Azərbaycana axını ilə müasir Azərbaycan Ordusunun təməli qoyuldu. Dövlət Müdafiə Şurasının ilk iclasında rüşvətxorluğa, cinayətkarlığa, Vətən qarşısında öz müqəddəs borcunu yerinə yetirməkdən boyun qaçıran şəxslərə qarşı barışmaz mübarizə aparılacağının bəyan edilməsi, çağırış və səfərbərliyin, hərbi komissarların işinin günün tələblərinə uyğun qurulması, fərarilərə, xidmətdən yayınanlara qarşı ciddi cəzaların tətbiq olunması istiqamətində atılan qətiyyətli addımlar Azərbaycan Ordusunun döyüş hazırlığının yüksəlməsinə səbəb oldu. Ordu quruculuğu sahəsində aparılan işlərin sistemləşdirilməsi, mərkəzləşdirilməsi, hərbi qulluqçularda Vətənə, xalqa, dövlətçiliyimizə sədaqət və məhəbbət hisslərinin möhkəmləndirilməsi, onların ümumdövlət mənafeləri ətrafında səfərbər edilməsi, ordunun vahid komandanlıq prinsipi əsasında fəaliyyət göstərməsi qısa müddətdən sonra öz səmərəsini verdi.

Ümummilli Lider Heydər Əliyev ordu quruculuğu prosesinə hələ 1969-cu ildə respublikaya rəhbər seçilməsi ilə başladı. Belə ki, hərbi kadr sahəsində atdığı addımlar, Cəmşid Naxçıvanski adına hərbi təmayüllü ixtisaslaşdırılmış orta məktəbin əsasının qoyulması, azərbaycanlıların ölkə xaricində hərbi məktəblərə daxil olmasının təmin edilməsi, milli zabit kadrlarımızın vəzifələrə irəli çəkilməsi Azərbaycan dövlətinin hərb tarixində yeni bir mərhələnin əsasını qoydu. Ulu Öndər tərəfindən ordu quruculuğu sahəsində milli maraqlarımızın qorunaraq, inkişaf etdirilməsi istiqamətində atılan tarixi addımlar sonradan müstəqil Azərbaycan Respublikasında mərkəzləşdirilmiş nizami ordunun yaranmasına təkan oldu. Dahi Şəxsiyyət Heydər Əliyev güclü və intizamlı ordunun yaradılmasının, həm də yüksək ixtisaslı milli zabit kadrların mövcudluğundan asılı olduğunu nəzərə alaraq Silahlı Qüvvələrin Hərbi Akademiyasını (indiki Milli Müdafiə Universiteti) yaratdı, Ali Hərbi Dənizçilik və Ali Hərbi Təyyarəçilik Məktəblərini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) formalaşdırdı. Azərbaycanda ali hərbi məktəblər sisteminin yaradılması, onun tədris prosesinin NATO-ya üzv olan ölkələrin hərbi təhsil sisteminin üstünlüklərinə uyğun olaraq qurulması ilə Azərbaycan Ordusu ciddi, hazırlıqlı, vətənpərvər zabit kadrları ilə təchiz edilir. Bütün bunlar sübut edir ki, bu gün Azərbaycan Respublikasının qüdrətli və nizami orduya malik olması məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir.

Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, peşəkarlığının artırılması fasiləsiz davam edən prosesdir. Hər bir ordunun qüdrəti onun döyüş qabiliyyəti ilə mənəvi gücünün vəhdətində reallaşır. Bu gün Azərbaycan cəmiyyətində, eləcə də Azərbaycan Ordusunda Ulu Öndər Heydər Əliyev tərəfindən hazırlanmış və elmi-nəzəri prinsipləri zamanın sınağından çıxmış mükəmməl hərbi vətənpərvərlik konsepsiyası mövcuddur. İstər sülh, istərsə də müharibə dövründə hərbi qulluqçularda Vətənə, xalqa, dövlətçiliyimizə sədaqət və məhəbbət hisslərinin möhkəmləndirilməsi, onların ümumdövlət mənafeləri ətrafında səfərbər edilməsi bu istiqamətdə aparılan fəaliyyətin əsas məqsədləridir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev azərbaycanlı olmasıyla həmişə qürurlanan, çağdaş Azərbaycan dövlətçiliyinin memarı olan dahi şəxsiyyət Heydər Əliyev ordu quruculuğu siyasətini bu gün də uğurla davam etdirir. Ali Baş Komandanın rəhbərliyi ilə hər il qoşunların idarəetmə, döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Ordusunda taktiki təlimlər keçirilir. Bu təlimlərdə müasir döyüş taktikası tətbiq edilir, dünyada ən qabaqcıl təcrübə öyrənilir. Bu təlimlər dost və tərəfdaş ölkələrlə də davam etdirilir. Təlimlərdə qazanılan təcrübənin məntiqi nəticəsi idi ki, Azərbaycan Ordusu bəşər tarixinin ən müasir müharibəsini aparmaqla, Ermənistanın işğalına məruz qalmış ərazilərimizi azad edərək respublikamızın ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Azərbaycan həm 44 günlük Vətən müharibəsində, həm də antiterror əməliyyatında döyüşmək bacarığını, güclü-müasir ordusunu, ən son hərbi texnika üzrə təlim keçmiş yeni nəsil mütəxəssislərini, mühəndislərini, zabitlərini, elit xüsusi təyinatlı bölmələrini nümayiş etdirdi.

Azərbaycan Respublikasında ordu dövlət üçün prioritetdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmləndirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik".

**İdeoloji Təminat İdarəsi**




**Xəzər dənizinin Azərbaycan Respublikasına aid olan sektorunun müdafiəsi etibarlı əllərdədir. Hərbi dənizçilərimiz bu çətin, məsuliyyətli və şərəfli vəzifənin öhdəsindən layiqincə gəlirlər.**

## *Hərbi hüquq*

### Hərbi qulluqçuların statusu haqqında Azərbaycan Respublikasının Qanunu

**I Bölmə**

**Ümumi müddəalar**

**Maddə 1.** Hərbi qulluqçuların hüquqi statusu

1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilmiş vəzifələri, hərbi xidmətin şəraiti və xarakteri hərbi qulluqçuların statusunu müəyyən edir. Hərbi qulluqçuların statusu Azərbaycan Respublikasının Konstitusiyasında, Azərbaycan Respublikasının başqa qanunvericilik aktlarında müəyyən edilən hüquqlardan, vəzifələrdən, bunların həyata keçirilməsi üçün təminatlardan və məsuliyyətdən ibarətdir.

2. Hərbi qulluqçular bu Qanunla, Azərbaycan Respublikasının başqa qanunvericilik aktları ilə müəyyənləşdirilən və hərbi xidmətin xüsusiyyətləri ilə bağlı olan əlavələrlə və məhdudiyyətlərlə Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarından istifadə edirlər. Hərbi qulluqçular Azərbaycan Respublikası vətəndaşlarının bütün vəzifələrini, habelə öz statusundan irəli kələn vəzifələri daşıyırlar.

3. Heç kəsin ixtiyarı yoxdur ki, hərbi qulluqçuları və onların ailə üzvlərini Azərbaycan Respublikasının Konstitusiyasında və qanunlarında Azərbaycan Respublikasının vətəndaşları üçün nəzərdə tutulmuş hər hansı hüquq və azadlıqlardan məhrum etsin və ya onların hüquqlarını məhdudlaşdırsın; buna yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına müvafiq surətdə yol verilir.

Hərbi xidmətin şəraiti ilə əlaqədar olaraq hərbi qulluqçuların ümumi vətəndaşlıq hüquqlarının məhdudlaşdırılması, habelə onlara əlavə hüquqlar verilməsi və əlavə vəzifələr tapşırılması bu Qanunla, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələri və Azərbaycan Respublikasının başqa qanunvericilik aktları ilə müəyyən edilir.

4. Hərbi qulluqçuların məsuliyyəti onların statusunun xüsusiyyətləri nəzərə alınmaqla Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilir.

## *Könlüm şeir istəyir*

# Vətən, sənin əsgərinəm!

Həqiqi poeziyanın mənbəyi şairin daxili mənəvi aləmi, onun duyğu və düşüncələridir. Bu düşüncələr mütləq gerçək həyatın özündən qidalanmalı, poeziyada yenidən poetik formada canlanmalıdır. Yalnız belə olduqda şeir oxucu qəlbini dilə gətirib, onun daxili aləmində yuva sala bilir. Bu şeirləri mən ürəyimin odu ilə yazmışam. Hər bir şair, ilk növbədə, özünü yazır, onu düşündürən hisslərin baş memarına çevrilir. Hər kəs yaşından asılı olmayaraq həmişə özünü Vətənə borclu sayır. Mən də belə düşünürəm:

Vətənlə sevinib gülmürəmsə mən,
Dərdini öz dərdim bilmirəmsə mən,
Torpağım uğrunda ölmürəmsə mən,
Demək bu torpağın oğlu deyiləm!

**və yaxud:**

Sənsiz yaşamağım ölümdür azı,
Bu yolda hər şeyə olaram razı,
Neynirəm yad eldə çiçəkli yazı,
Həmişə baharın gəlsin, ey Vətən.

**İrəli, igid əsgər!**

Döyüşməyə hazır ol,
Düşməninden qisas al,
Tükənib geriyə yol,
İrəli, igid əsgər!

Xalqındır sənə həyan,
Günəşdən qabaq oyan,
Səngərdə məğrur dayan,
İrəli, igid əsgər!

Bu yurdun qeydinə qal,
Dünyanı lərzəyə sal,
Döyüşlərdə zəfər çal,
İrəli, igid əsgər!

Qeyrətin cuşa gəlsin,
Əllər sənə baş əysin,
Güllən hədəfə dəysin,
İrəli, igid əsgər!

Vətənində gül bitir,
Hər yandan gəlsin ətir,
Bu yurda sevinc gətir,
İrəli, igid əsgər!

**Oğul, bu Vətəni gözüntək qoru**

Oğul, bu Vətəni gözüntək qoru,
Hər qarış torpağı sənə əmanət.
Hər daşın, qayasın sev özün kimi,
Çiçəyi, torpağı sənə əmanət.



Vətən əmr eləsə ol igid əsgər,
Düşmənin başını üzüb yerə sər,
Şəhid ol, qazi ol, təki çal zəfər,
Hər körpə uşağı sənə əmanət.

Yağının hiyləsin duyub babalar,
Bu yurdu qanıyla yuyub babalar,
Nəsildən-nəslə qoyub babalar,
Dərəsi, bulağı sənə əmanət.

**Sərhəd dirəkləri, sərhəd daşları**

Ürəyim açılır sizi görəndə,
Sərhəd dirəkləri, sərhəd daşları.
Sizi öz dünyamla görürəm mən də,
Sərhəd dirəkləri, sərhəd daşları.

Min illərdir məğrur dayanmısınız,
Düşmən hənirinə oyanmısınız,
Şəhidlər qanına boyanmısınız,
Sərhəd dirəkləri, sərhəd daşları.

Sizdən başlayıbdır Vətənin yolu,
Adi kolunuz da uludur, ulu,
Tarix olmusunuz xatirə dolu,
Sərhəd dirəkləri, sərhəd daşları.

Elimin, obamın gözü var sizdə,
Babamın əlinin izi var sizdə,
Dilimin laylası, sözü var sizdə,
Sərhəd dirəkləri, sərhəd daşları!

**Qələbə günəşi doğdu yurduma**

Ordumun nifrəti şimşəyə döndü,
Gecə də gözümə gündüz göründü,
Zirvədən boylanan daş da sevindi,
Qələbə günəşi doğdu yurduma.

Silindi torpaqdan düşmənin izi,
Kor olan yolların açıldı gözü,
Sıxdı sinəsinə Bakı Təbrizi,
Qələbə günəşi doğdu yurduma.

Sığındı qoynuma torpağım, daşım,
Çiynimin üstündən dikəldi başım.
Sevindi gözümdən axan gözyaşım,
Qələbə günəşi doğdu yurduma.

Vətən bir yanadı, dünyam bir yana,
Bayrağım gözdağı oldu düşmana,
Alqış səsi axdı Azərbaycana,
Qələbə günəşi doğdu yurduma.

Dəmir yumruq oldu xalq Komandanla,
Hər qarış torpağım yuyuldu qanla,
Yenə qürur duydu Vətən İlhamla,
Qələbə günəşi doğdu yurduma.

**Qoy Zəfər libasın geyinsin Vətən**

Mətin ol, səngərdə məğrur dayan sən,
Qoy düşmən titrəsin nərə səsindən,
Qorxut, yağı qorxsun öz kölgəsindən,
Səninlə fəxr etsin, öyünsün Vətən.

Sayıq ol, sərhəddən quş da səkməsin,
Xidmətdə bir anın hədər keçməsin,
Özündən üstün tut Vətən kəlməsin,
Sinəndə qəlbinlə döyünsün Vətən.

Zəfər çalmaq üçün qartaltək şığı,
Oyat harayınla dərəni, dağı,
Qarşında diz çöksün, inləsin yağı,
Qoy Zəfər libasın geyinsin Vətən.

**Vətən, sənin əsgərinəm!**

Bu dünyaya gələn gündən,
Vətən sənin əsgərinəm.
Qürur duyub fəxr edirəm,
Vətən, sənin əsgərinəm!

Adın varsa, bəsdir mənə,
Torpağın nəfəsdir mənə,
Nə varsa əbəsdir mənə,
Vətən, sənin əsgərinəm!

Anam sənsən hamı bilsin,
Övladların deyib gülsün,
Sənə gələn mənə gəlsin,
Vətən, sənin əsgərinəm!

Adın uca xeyir şərdə,
Güntək görün sən hər yerdə,
Oğlum ilə bir səngərdə,
Vətən, sənin əsgərinəm!

**Xalqın Mübariz oğlu**

*Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr olunub*

Şəhidsən, zirvədəsən,
Heç vaxt ordan düşməzsən,
Kişiliyinə əhsən,
Xalqın Mübariz oğlu!

Sarsıtmısan düşməni,
İçində çəkir qəmi,
Mat qoydun bu aləmi,
Xalqın Mübariz oğlu!

Bu sənin Vətənindi,
Sənlə fəxr edir indi,
Azərbaycan sevindi,
Xalqın Mübariz oğlu!

Ömrünü peşkəş etdin,
Ölümün üstə getdin,
Xalqını uca etdin,
Xalqın Mübariz oğlu!

Düşməndən qisas aldın,
Qəlblərdə bitib qaldın,
Vətənin fəxri oldun,
Xalqın Mübariz oğlu!

**Ay-ulduzlu bayrağım**

Sən başımıza tacsan,
Ay-ulduzlu bayrağım!
Göylərdən baxacaqsan,
Ay-ulduzlu bayrağım!

Rəngində şəhid qanı,
Səninlə məğrur hanı,
Sevdir Azərbaycanı,
Ay-ulduzlu bayrağım!

Qalx-qalx ulu göylərə,
Min kərə, milyon kərə,
Başın düşməsin yerə,
Ay-ulduzlu bayrağım!

Özündə tap cürəti,
Tükənməyən sərvəti,
Vətənimin şöhrəti,
Ay-ulduzlu bayrağım!

**Ramazan ZİYADOV**
**"Azərbaycan Ordusu"**

**Redaktor** mayor Ceyhun CƏFƏRLİ

**Telefon** Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçi: (012) 404-76-22

**Ünvanımız** Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı** 2 saylı Xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi** Şəlalə CAMAL

Lisenziya № 361
Sifariş № 569
Nüsxə 3653